# Sil Süpürlər

**I Şah Abbas dövrü (1587 – 1629)**

Sil Süpürlərin, Şah Abbasın hicri 1015-ci (1606-1607) ildə İrəvan mühasirəsi əsnasında Türkiyədən gəldiklərini və Abbasın onlara Savə və Rey tərəflərində yurd verdiyindən əvvəlcə bəhs edilmişdi.Bunların önəmli bir qismini Cərid boyuna mənsub bir qolun təşkil etdiyi anlaşılır. Eyni çağda Türkiyədəki Cəridlərin bir qismi də Cərid Sil Süpür adı ilə anılırdı. Türkiyədəki Cərid Sil Süpürlərin başında bulunan ailə varlığını günümüzədək sürdürmüşdür. İrana gələn Sil Süpürlərin başı Xəlil adında bir bəy olub, Abbas ona Sultanlıq ünvanı vermişdir. Sil Süpür Xəlil Sultan hicri 1018-ci (1609) ildə buyruğundakı üç yüzədək əsgər ilə Kürdüstan üzərinə göndərilən əmirlər arasında bulunmuş və Urmiya şəhəri civarındakı Dumdum Qalasının fəthinə qatılmışdır. Xəlil Sultan sonra Bağdadın mühasirəsinə qatılmış (hicri 1025 = 1616) və Osmanlı ərzaq gəmilərinin gəlməsinə əngəl olmaq üçün Samarra tərəflərinə göndərilmişdir. Türkiyədən gələn Sil Süpürlər iki min alaçıq idi. Abbas bunlardan bir qismini qorucular arasına daxil etmiş, geri qalanlarını da yenə özlərindən Xəlil Sultanın əmrinə vermişdi. Bu oymağın Şah Səfi çağında Azərbaycanda yaşadığını bilirik. Hicri 1065-ci (1654-1655) ildə elçilik ilə İstanbula göndərilən Kəlb-i Əli Sultan da Sil Süpürdən idi. Kəlb-i Əli Sultanın hicri 1074-cü (1663-1664) ildə həyatda olduğu görünür. Sil Süpürlər XVIII yüzildə də varlıqlarını sürdürmüşlər. Hicri 1162-ci (1748-1749) ildə Çağdavu Başılıq mövqeyində bulunan Mənsur Xan, Sil Süpür oymağından idi.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**